# **“Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi” elektron xidmətinin İstifadəçi təlimatı**

**“Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi”** elektron xidməti üzrə müraciət ərizəsinin təqdim olunması məqsədilə Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;
- SİMA Token;
- SİMA imza;
- Şəxsiyyət vəsiqəsində əks olunmuş FİN, seriya və nömrə və mobil telefon nömrəsi.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Sonra "Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi" elektron xidməti üzrə müraciət ərizəsini təqdim etmək üçün "Yeni ərizə" xanasına ərizənin adı daxil edilir. Axtarış nəticəsində ekranda göstərilən müvafiq ərizə forması seçilir və yaxud "Hamısına bax" düyməsi vasitəsilə açılan pəncərədən də müvafiq ərizə forması seçilə bilər.




Əgər ərizə forması istifadəçi tərəfindən daha əvvəl doldurularaq qaralama kimi saxlanılıbsa, açılan pəncərədə həmin qaralama ərizə formaları göstərilir və onlardan birini seçmək imkanı yaradılır. İstifadəçi əvvəllər qaralama kimi saxlanılmış ərizə forması üzrə davam etmək istədikdə, müvafiq ərizə formasını seçərək aktivləşən "Davam et" düyməsini sıxır. Bu zaman yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və ona düzəliş etmək mümkün olur.




Yeni ərizə forması yaratmaq istənildikdə **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Açılmış ərizə formasında "Siyahıya qayıt" düyməsi sıxıldıqda açılan pəncərədə "İmtina" düyməsi seçilməklə ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, "Xeyr, silinsin" düyməsi seçilməklə yaradılmış ərizə formasını silmək, "Bəli, yadda saxlanılsın" düyməsi seçilməklə isə yaradılmış ərizə formasını yadda saxlamaq mümkündür.






"Xeyr, silinsin" düyməsi sıxıldıqda açılan "Xidmətin yekunlaşdırılması" pəncərəsində müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən "Göndər" düyməsi sıxılır.




Açılan ekranda vergi orqanı və vergi ödəyicisi barədə məlumatlar avtomatik əks olunur.




**Sorğu edilən şəxsin məlumatları bölməsi**

Ərizə forması açıldıqda "Sorğu edilən şəxs müraciət edən şəxslə eynidir" çekboksu sistem tərəfindən susmaya görə seçilmiş vəziyyətdə olur. Sorğu edilən şəxs müraciət edən şəxslə eyni olduqda əlavə məlumatın daxil edilməsinə ehtiyac olmur və ərizənin doldurulmasına davam edilir.




Sorğu edilən şəxs müraciət edən şəxslə eyni olmadıqda "Sorğu edilən şəxs müraciət edən şəxslə eynidir" çekboksunun seçimi ləğv edilir.




Sorğu edilən şəxsin müəyyən edilməsi üçün "VÖEN/Adı" və ya "Şəxsiyyəti təsdiq edən sənədin FİN-i, seriyası və nömrəsi" seçimlərindən biri işarələnərək müvafiq məlumatlar daxil edilir. Məlumatlar daxil edildikdən sonra sorğu edilən şəxsə aid məlumatlar sistem tərəfindən avtomatik olaraq əks etdirilir.


Siyahıya qayıt
Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi
Yeni
Azərbaycan Respublikasının rəsmi dövlət platforması
Rəsmi vebsaytları necə tanımaq olar ?
Ərizə
Ümumi müddəalar
Vergi orqanı
İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi
Vergi ödəyicisi
9900001881 / "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Rəhbər
5N983U3 / ƏZİMZADƏ MURAD FƏRHAD OĞLU
Sorğu edilən şəxsin məlumatları
Sorğu edilən şəxs müraciət edən şəxslə eynidir
Arayış digər şəxsə təqdim edildikdə
Sorğu edilən şəxs
VÖEN/Adı
Şəxsiyyəti təsdiq edən sənədin FİN-i, seriyası və nömrəsi
9900050571 / "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ
Əlavə et
Az
En
Ru
Növbəti
Qaralamada saxla və çıx


Siyahıya qayıt
Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi
Yeni
Azərbaycan Respublikasının rəsmi dövlət platforması
Rəsmi vebsaytları necə tanımaq olar ?
Ərizə
Ümumi müddəalar
Vergi orqanı
İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi
Vergi ödəyicisi
9900001881 / "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Rəhbər
5N983U3 / ƏZİMZADƏ MURAD FƏRHAD OĞLU
Sorğu edilən şəxsin məlumatları
Sorğu edilən şəxs müraciət edən şəxslə eynidir
Arayış digər şəxsə təqdim edildikdə
Sorğu edilən şəxs
VÖEN/Adı
Şəxsiyyəti təsdiq edən sənədin FİN-i, seriyası və nömrəsi
Əlavə et
Az
En
Ru
Növbəti
Qaralamada saxla və çıx




Arayışın digər şəxsə təqdim edilməsi nəzərdə tutulduqda **"Arayış digər şəxsə təqdim edildikdə"** çekboksu seçilir. Sonra arayışın təqdim edilməsi nəzərdə tutulan şəxsin VÖEN-i və ya adı müvafiq xanaya daxil edilir, axtarış nəticəsində ekranda göstərilən vergi ödəyicisi seçilir və "Əlavə et" düyməsi sıxılır.






*Qeyd 1: Hazırlanmış arayış seçdiyiniz vergi ödəyicisinin (ödəyicilərinin) e-kabineti olmadığı halda Sizin elektron kabinetinizə göndəriləcəkdir.*

*Qeyd 2: Hazırlanmış arayış seçdiyiniz vergi ödəyicisinin (ödəyicilərinin) e-kabineti olduğu halda həm onun (onların), həm də Sizin e-kabinetinizə göndəriləcəkdir.*

Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən "Növbəti" düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün "Qaralamada saxla və çıx" düyməsi sıxılır.




Növbəti düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




"İmzala və göndər" düyməsi sıxıldıqda açılan pəncərədə "İmtina" düyməsi seçildikdə istifadəçi yenidən ərizə formasının doldurulması pəncərəsinə qaytarılır.




"İmtina" düyməsi sıxıldıqdan sonra açılan pəncərədə "Sil" düyməsi sıxılmaqla ərizə forması silinə və ya bu əməliyyatdan imtina edilə bilər.







Ərizə imzalanaraq göndərildikdən sonra açılan pəncərədə istifadəçi tərəfindən daxil edilmiş məlumatlara uyğun ərizə forması və ərizənin göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.


Ərizə

×

**Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi**

**Qeydiyyat nömrəsi 2616010025029600 | Qəbul olundu 09.07.2026 saat 11:34**

Endir

**Ümumi müddəalar**

| | |
|---|---|
| Vergi orqanı | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi |
| Vergi ödəyicisi | 9900001881 / "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Rəhbər | 5N983U3 / ƏZİMZADƏ MURAD FƏRHAD OĞLU |

**Sorğu edilən şəxsin məlumatları**

| | |
|---|---|
| FİN | |
| Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi | |
| Adı, soyadı, ata adı | ÜLVİYYƏ HÜSEYİNOVA ARİF QIZI |

Tərəfinizdən göndərilmiş "Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi" üçün müraciət ərizəsi Dövlət Vergi Xidmətinin AVİS "Kargüzarlıq" altsistemində 2616010025029600 nömrəsi ilə qeydiyyata alınmışdır. Ərizəyə 5 iş günü ərzində qanunamüvafiq qaydada baxılaraq cavab veriləcəkdir.

Bağla

İstifadəçi tərəfindən **"Vergi ödəyicisinin vergi orqanında qeydiyyatı barədə arayışın verilməsi"** ilə əlaqədar göndərilən elektron ərizə onun "Ərizələr" modulundakı "Göndərilənlər" qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

